“Biz, Azərbaycan Prezidenti İlham Əliyevin əsgəriyik, onun çağırışlarına həmişə hazırıq...”

Müsahibimiz AMEA Tarix İnstitutunun Elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru CƏBİ BƏHRAMOVDUR

Cənab İlham Əliyevin prezidentliyə başladığı ilk illərdən ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlərin tarixi köklərinin araşdırılması milli tarixşünaslığımızın ən vacib vəzifəsinə çevrilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu son 8-9 ildə ölkə Prezidentinin çağırışlarının böyük əksəriyyətinə aydınlıq gətirmişdir. Erməni vəhşətinin necə, hansı şəraitdə başlaması və bununla bağlı arxiv sənədlərinin ortaya çıxarılması, ideoloji müharibədə həmin sənədlərdən erməni təbliğatına, o cümlədən onları himayə edənlərə qarşı yetərincə və uğurla istifadə imkanları Tarix İnstitutunun şərəf məsələsinə çevrilmişdir. Möhtərəm Prezidentin, demək olar ki, hər çıxışında “İrəvan - Azərbaycan torpağıdır”, “Qarabağ-Azərbaycan torpağıdır”, “Zəngəzur - Azərbaycan torpağıdır” deməsi, və “Biz - azərbaycanlılar mütləq o torpaqlara qayıdacağıq” əminliyini ifadə etməsi bu istiqamətdəki çalışmalara xüsusi ruh yüksəkliyi verir, vətəndaşlarımızda, dünya azərbaycanlılarının qəlbində milli qeyrət hissini alovlandırır.

Cənab Prezident bu mövzuya toxunduğu sonuncu çıxışında - Astanada işgüzar səfərdə olarkən Qazax xanlığının 550 illik yubileyində Zəngəzurun ermənilərə verilməsi haqqında tarixi ədalətsizlikdən danışmış, türk dünyasının coğrafi baxımdan əlaqəsinin kəsilməsi, araya pərçim olunmuş erməni səddi barədə xüsusi fikir söyləmişdir. Hazırda tarixçilərimizin məqsədi arxiv sənədləri vasitəsilə bu məsələlərin mahiyyətini açmaq, qondarma Ermənistan dövlətinin bu ərazidə qurulma tarixi, bu torpaqların ermənilərə verilməsi məsələsi, 1918-ci il may ayının 29-da Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasında bu məsələlərin müzakirəsi və orada çıxarılan qərarlara aydınlıq gətirməkdən ibarətdir. İlk növbədə arxiv sənədlərinin üzə çıxarılması çox vacibdir. Ölkə daxilindəki dövlət arxivlərində olan sənədləri, həm də o ölkələrdə ki, onlar bu və ya digər dərəcədə həmin dövrdə erməni - Azərbaycan qarşıdurmasında iştirak etmişdilər, oradakı sənədləri tapıb ölkəyə gətirmək işi İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun rəhbərliyi ilə görülmüş və görülməkdədir. 2005-ci ildə “Kürəkçay-200” kitabını, 2007-ci ildə isə tarixi mənbələr əsasında “Azərbaycan Tarixi Atlası”nın nəşri məhz bu işlərin məntiqi nəticəsidir. Atlasda e.ə. 4-cü minillikdən bu yana hansı torpaqların Azərbaycan ərazisi olması qənaəti yeni tapılmış xəritələr əsasında Azərbaycan Milli Ensiklopediyasının “Xüsusi cildi”nin “Tarix” bölməsində tutarlı faktlarla əsaslandırılmışdır. Ondan sonrakı dövrə gəldikdə isə Tarix İnstitutu 2007-ci ildən başlayaraq bir çox ölkələrin, xüsusilə Rusiya Federasiyası, Türkiyə, Böyük Britaniya, Fransa, İran, Almaniya Federativ Respublikası, Gürcüstan, Hindistan dövlət arxivlərindən gətirtdiyi arxiv sənədlərini də elmi-siyasi dövriyyəyə hazırlamışdır.

Azərbaycan elmini və siyasətini bu gün tarixi aspektdən ən çox maraqlandıran məsələlər keçən əsrin 20-ci illərinə, xüsusilə də 1918-1920-ci illərə aiddir. Doğrudur, son vaxtlar Türkiyə Cümhuriyyətindən, Vatikandan gətirilmiş bir çox sənədlər əsasən orta əsrlərdə tərtib edilmiş icmal və müfəssəl dəftərlər Osmanlı - Səfəvi münasibətləri dövrünə aid olsalar da, bunlar da bu və ya digər baxımdan erməni - Azərbaycan qarşıdurmasının səbəblərini açıb göstərməkdə əhəmiyyətli açar ola bilirlər. Lakin yeni sənədlər daha çox XVIII, XIX və XX əsrin I yarısına aiddir. Burada diqqəti cəlb edən adı yuxarıda çəkilən ölkələrin arxivlərindən gətirilən ən vacib sənədlər 1801 - 1809, 1804 - 1813, 1826 - 1828, 1829 - 1917 və 1918 - 1920-ci illəri əhatə edir.

Beləliklə, qədim Azərbaycan şəhəri İrəvanın sonrakı taleyi məsələsi, onun ermənilərə hansı şəraitdə, nə üçün verilməsi və bu şəhər verilərkən Azərbaycan Milli Şurasında gedən debatlar, hansı iclasda, hansı tarixdə, hansı ayda, hansı qərarlar qəbul olunub, bax, bu barədə ətraflı məlumat hazırlanmış və dövlət başçısına çatdırılmışdır. Bu işlərin məntiqi nəticəsi “İrəvan xanlığının tarixi” adlı fundamental bir kitabın nəşrinə yol açmışdı. Dövlət mükafatına layiq görülmüş həmin kitab ancaq arxiv sənədləri, həm də Rusiyanın və ermənilərin özlərinin tərtib etdikləri arxiv sənədləri əsasında yazılıb nəşr etdirilmişdir. Bu kitabın elmi sanbalını göstərən bir cəhəti də qeyd edək: “İrəvan xanlığının tarixi” beş dildə nəşr olunmuşdu, son vaxtlar isə İtaliya və ərəb dilinə də tərcümə edilmişdir. “İrəvan xanlığı”, “Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” başlıqları altında yazılıb nəşr olunmuş bu əsər ilk növbədə təcavüzkar erməni ideologiyasının məhv edilməsi üçün böyük rezonans yaratmışdı. Bu kitab işıq üzü gördükdən sonra ermənilər öz saxta sənədləri girdabında çaş-baş qalmışdılar. Azərbaycan tarixçilərinin təkzibolunmaz faktlarına qarşı duruş gətirmək halında deyildilər. Dərk etmişdilər, Azərbaycan tarixçiləri elə tarixi faktlara malikdirlər ki, artıq onlar təkcə Qarabağın deyil, Zəngəzurun, paytaxtları İrəvanın, Göyçə mahalının Azərbaycan torpaqları olmasını sübuta yetiriblər.

Cənab Prezident İlham Əliyev 2014-cü il iyul ayında XİN-də diplomatlarımızla görüşü zamanı bildirmişdi ki, “İrəvan xanlığının tarixi” kitabından kiçik broşürlər hazırlayıb, həm tariximizə, həm də millətimizə qarşı soyqırımların törədilməsi məsələsini bütün dünyaya yaymaq lazımdır. Bu işlərin icrası üç dövlət strukturuna - AMEA-nın timsalında Tarix İnstitutuna, XİN və Mədəniyyət və Turizm Nazirliyinə tövsiyə olunmuşdu. Beləliklə, erməni soyqırımı bütün Azərbaycanı əhatə etdiyinə görə Cənubi Azərbaycan, İrəvan, Naxçıvan, Zəngəzur, Bakı, Şamaxı, Quba və b. ərazilərimizdə törədilən soyqırımı cinayətləri arxiv sənədləri, təkzibolunmaz faktlar əsasında Azərbaycan, rus, ingilis dillərində hazırlanıb nəşr olunaraq yayılmışdır. Cəbi Bəhramov Azərbaycan xalqına qarşı törədilən soyqırımı cinayətləri tarixinə İnstitut tərəfindən həsr olunmuş beynəlxalq elmi konfransları xüsusi qeyd edir. Son beş ildə İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Y.Mahmudovun təşəbbüsü ilə Avropa, RF, Türkiyə, İran, Mərkəzi Asiya ölkələrindən olan alimlərin iştirakı ilə iki beynəlxalq konfrans keçirilmiş, dünya ictimaiyyətinə müraciətlər qəbul edilmişdir. Bundan əlavə, İnstitutun alimləri Avropa ölkələri, Ukrayna, RF və Türkiyədə keçirilən elmi konfranslara gedir, Azərbaycan xalqının və dövlətinin maraqlarını müdafiə edirlər. Bu ilin oktyabr ayının 13 - 15-də qədim Gəncə şəhərində Türkiyə Respublikası Atatürk Araşdırma Mərkəzinin VIII Konqresi keçirilmişdir. Əsas müzakirə mövzusu XIX - XX əsrlərdə Qafqazda və Ön Asiyada baş verən hadisələr idi. Konqresə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müraciət ünvanlamışdı. Bu, Tarix İnstitutunun çox böyük uğurudur.

Tarix İnstitutunda işlər bu istiqamətdə aparılır.

İnstitut bu mövzularla yanaşı, siyasi tariximizlə, sosial-iqtisadi, mədəniyyət və hərb tariximizlə bağlı mövzulara aid işlər də görür və təbii ki, dünyanın bir çox arxivlərindən gətirilən faktlar o mövzuların işıqlandırılmasında mühüm rol oynayır. Ümumiyyətlə, işlər o istiqamətdə aparılır ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılsın. Ancaq bu işlər kitab nəşri ilə bitmir, sənədli filmlərin çəkilişi, İrəvan xanlığı, Şuşa şəhəri, Azərbaycan neft sənayesinin tarixi ilə bağlı, XIX - XX əsrlər tarixinin bir sıra digər istiqamətləri barədə sənədli filmlər də istehsal edilmişdir. İnstitut əməkdaşları həm elmi məsləhətçi, həm də onların özlərinin bilavasitə iştirakı ilə həmin sənədli filmlərin yaradılmasında mühüm işlər görürlər. Həmin filmlər bir çox xarici dillərə tərcümə olunaraq yayılmışdır.

Yeri gəlmişkən, İnstitutun tədqiqat planlarında Azərbaycan neftinin tarixi xüsusi yer tutur. Bu qiymətli sərvətimizin tarixinin tədqiqi bu gün xüsusi elmi və siyasi əhəmiyyət daşıyır. Məlumdur ki, Azərbaycan nefti son iki əsrdə təkcə xalqımızın deyil, həm də dünya tarixində mühüm rol oynamaqdadır. XX əsrin I yarısında insanlıq tarixində baş vermiş ən dəhşətli iki dünya müharibəsinin əsas səbəblərindən biri də ölüm-dirim savaşına başlayan dünya dövlətlərinin Azərbaycan neftinə sahib olmaq istəyi idi. Cəbi Bəhramov bildirdi ki, 30 ilə yaxındır bu təbii sərvətin Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəniyyət tarixində oynadığı rolun tədqiqi ilə məşğuldur. Milli tariximizin ilk dəfə Azərbaycan Xəzər dəniz neftçıxarma sənayesinin yaradılması tarixi onun tərəfindən tədqiq olunub. O, hazırda bu problemi daha geniş aspektdə tədqiq edir, doktorluq dissertasiyası kimi başa çatdırmaqdadır. Bu məsələ ilə əlaqədar Cəbi Bəhramov bir mühüm məsələni xüsusi qeyd etdi. 2010-cu ildə ARDNŞ-in sifarişi ilə mətnini yazdığı və Yaqub Mahmudovun elmi redaktorluğu, Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə Azərbaycan və ingilis dillərində “Azərbaycan nefti” adlı əsər nəşr edilmişdir. 352 səhifəlik kitabda Azərbaycan neftinin tarixi sənədlər, fotolar, arxiv sənədləri, illüstrasiyalarla təqdim olunmuşdur. Bu əsərin bazasında Cəbi Bəhramov ikicildlik “Azərbaycan neftinin tarixi” adlı yeni bir kitabını da nəşrə hazırlamışdır; o kitab yaxın vaxtlarda çapa təqdim olunacaqdır. Bu əsər bir çox məsələlərə, xüsusilə də XIX əsrin sonu, XX əsrin əvvəllərində neft sənayesində təmsil olunan milli, rus və Avropa ölkələri kapitalı nümayəndələrinin fəaliyyəti, I və II Dünya Müharibəsi zamanı Bakı neftinin oynadığı rol, xüsusilə də XX əsrin sonunda Azərbaycan neftinə olan maraq və digər məsələlərin elmi təhlili öz əksini tapıb.

Bundan əlavə, bu il II Dünya Müharibəsində Qələbənin 70 illiyi tamam olmuşdur. Bununla bağlı, xüsusilə də 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının qələbəyə verdiyi töhfə, onun rəhbərliyinin həyata keçirdiyi tədbirlər, xüsusilə də Bakı neftinin və neftçilərinin müstəsna rolu olmasaydı, heç bir qələbədən söhbət belə gedə bilməzdi. Bu mövzu ilə bağlı sənədlər dövriyyəyə buraxılarkən aparılan araşdırmalar nəticəsində bir sıra yeniliklər və həqiqətlər üzə çıxmışdır. O zaman Azərbaycan əhalisi, 1939-cu ilin siyahıyaalmasının nəticələrinə görə, 3 mln 274 min nəfər idi, 1941-ci ilin əvvəllərində isə əhalimizin sayı 3 mln 300 min nəfərə çatmışdı. Onun 700 mini cəbhəyə getmişdi, iki nəfərdən biri müharibədən geri qayıtmamışdı. Ərazisinə, iqtisadi potensialına, əhalisinin sayına görə Azərbaycan, SSRİ-nin bir çox respublikalarından kiçik olsa da, ölkəmizin, millətimizin müharibədə qələbəyə yardımı həmin respublikalarla müqayisədə qat-qat çox olmuşdur. SSRİ-də istehsal olunan 110 mln ton neftin 75,2 mln tonu Bakı nefti idi. Azərbaycan netçilərinin əməyi, alimlərimizin ixtiraları, Yusif Məmmədəliyev başda olmaqla kimyaçılarımız, həkimlərimizdən Əziz Əliyev, Mustafa bəy Topçubaşov və bir çox başqalarının çox yüksək səviyyədə formalaşdırılmış təşkilatçılıq işləri nəticəsində Azərbaycan xalqının qələbəyə töhfəsi misilsizdir. Bunun qarşılığında azərbaycanlılara münasibət məsələsi, azərbaycanlı əsgərlərin rus dilini bilmədikləri üçün haqsızcasına güllələnməsi, buna görə də milli diviziyaların yaradılmasının obyektiv səbəbləri barədə də xeyli yeni sənədlər üzə çıxarılmışdır.

Həmin müharibədə iştirak edən dövlətlərin hər birinin Bakını ələ keçirmək planlarının olması faktı da məlum olmuşdur. Tarixçilərimiz bu məsələlər üzərində işləyərkən ancaq bir arxiv sənədinə əsaslanmırlar, başqa arxivlərdən də tapılan materiallarla müqayisələr aparılır. Məsələn, 1941-1945-ci illər müharibəsi zamanı A.Mikoyanın təqdimatı ilə xalqımızın Azərbaycan ərazisindən deportasiya edilməsi məsələsi Kremlin gündəminə gətirilmişdi; bu, 1942-ci ilə aid olan məsələdir. Arxiv sənədləri axtarılmaqla yanaşı, o dövrün şahidlərinin də tapılmasına çalışılır, onların xatirələri, görüb-bildikləri məlumatlar sənədləşdirilir, digər arxiv sənədləri ilə birlikdə tədqiqata cəlb edilir. Beləliklə, Azərbaycan tarixinə aid həqiqətlərin bütün çılpaqlıqları ilə üzə çıxarılmasına nail olunur. Məsələn, 26-larla bağlı fakt. O vaxtı möhtərəm Prezidentin tapşırığı ilə xüsusi komissiya yaradılmışdı və İnstitutun direktoru Y.Mahmudov bu komissiyanın üzvü idi. Araşdırmalara başlanarkən məlum olmuşdu ki, şəhərimizin mərkəzindəki məzarlıqda 26 deyil, 23 insan qalığı var. Obyektivlik naminə qeyd edək ki, hətta sovet rejiminin tüğyan etdiyi illərdə qocaman Bakı camaatı S. Şaumyanın güllələnmədiyini, A.Mikoyanın isə həmin ərəfədə aradan çıxdığını gizlincə söhbət edirdilər. Sadəcə, o dövrdə Azərbaycanın tarixçi alimlərinə bu faktı sübuta yetirmək imkanı vermirdilər. Əksinə, hətta bir neçə şəxs onlar haqqında saxta tarix yazaraq akademik olmuşdu. Mövcud sənədlərə əsasən S. Şaumyanın qalıqları məzarlıqda yox idi. Bu faktla bağlı Rusiyada, Ermənistanda ənənəvi şivən qopmuşdu. Azərbaycan Tarix İnstitutunu saxtakarlıqda ittiham etməyə başlamışdılar. Lakin tarixçilərimizin Türkmənistandan gətirdikləri arxiv sənədləri deyir ki, S.Şaumyan və A.Mikoyan sentyabrın 20-də Ağcaqum çölündə güllələnənlər arasında olmamışlar. Stepan Şaumyan oktyabrın 1-dək Anastas Mikoyanla bir kamerada hərəsi gündə 1 rubl 50 qəpik dəyərində ərzaq payı alıb. Əgər sentyabrın 20-də güllələniblərsə, necə ola bilər ki, oktyabr ayının 1-dək yemək payı alıblar? Həbsxana sənədlərində məhbusun tam adı da yazılıb: Stepan Georqiyeviç Şaumyan. Opponentlər bununla da sakitləşməyiblər. Azərbaycan tərəfi yeni arxiv sənədləri axtarıb tapmaq üçün hətta Hindistana da mütəxəssis ezam etmişdi.

Tanınmış kino-telerejissor, əməkdar incəsənət xadimi Musa Bağırov (tank qoşunları qvardiya generalı Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunması faktının sübut olunub, ölümündən sonra təltif edilməsində Musa Bağırovun böyük əməyi var)1989-cu ildə SSRİ nümayəndə heyətinin tərkibində Hindistanda səfərdə olarkən, təsadüf nəticəsində ona Cənubi Azərbaycandan olan xalçaçı tacir deyir ki, sizin bir komissar burada dəfn olunub. Musa müəllimin “Kim” sualına, o, Cənubi Azərbaycan ləhcəsində “Şoomuyan” deyir və Musa müəllimi onun yaşadığı evə aparır. M.Bağırovun S.Şaumyanın yaşamış olduğu evə gedib orada şəkillər çəkməsi, qeydlər aparması nümayəndə heyətinin tərkibindəki DTK əməkdaşlarının diqqətini cəlb etmişdi. Onlar həmin fotoların lentini müsadirə etmişdilər. Ancaq Azərbaycan rejissoru canlı şahid qismində öz gördüklərini və bildiklərini İctimai TV-də lentə yazdırıb sənədləşdirmişdir. Azərbaycan tərəfinin bu cür fəal və dəqiq işlərindən sonra opponentlərimizin səsi kəsilmişdi, çünki əllərində təkzibedici heç bir sənədləri yox idi. Bütün bunları qeyd etməkdə məqsədimiz ondan ibarətdir ki, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu öz işlərini ilk növbədə xalqın milli mənafeyini təmin etmək istiqamətində qurur və onu təmin edir.

Digər istiqamət, ümumiyyətlə, Qarabağ, həm Aran, həm də Dağlıq Qarabağ, Azərbaycanın digər regionlarından qopardılaraq Ermənistana verilmiş torpaqların kompleks tarixini yenidən tədqiqata cəlb etmək, bolşevik-erməni partiya-dövlət adamlarının Azərbaycan xalqının iradəsinə zidd olaraq “torpaq bağışlamaq” siyasətinin köklərini və nəticələrini yenidən gündəmə gətirməklə millətimizə qarşı tarixi ədalətsizliklərin ifşasına xüsusi diqqət yetirmək, bu işlərin daxilində Dərbənd tarixi, Borçalı tarixini, İrəvan tarixini, Zəngəzur tarixini, Cənubi Azərbaycan tarixini, onun vacib tərəflərini də araşdırmaqdır. Çünki bir millət olaraq biz heç vaxt öz tarixi torpaqlarımızdan imtina edə bilmərik, bizim buna mənəvi haqqımız yoxdur. Azərbaycanın tarixçi-alimlərinin amalı bu fikir üzərində formalaşdığından, onların fəaliyyəti elmi, qəti və kəskin xarakter almışdır.

Bir mühüm faktı da xatırladaq. 2014-cü ilin iyun ayında RF Dövlət Dumasının deputatı, fraksiya sədri V. Jirinovski Tarix İnstitutuna müraciət edərək bizim alimlərimizin Dövlət Dumasında Rusiya-Azərbaycan münasibətləri tarixinə dair birgə dinləmələr keçirməyi təklif etmişdi. O, sonra Azərbaycana da gəlmişdi. Həmin məsələlər ətrafında gedən fikir mübadilələrində Tarix İnstitutunun xüsusi yeri var. Cəbi Bəhramov Moskvadakı Azərbaycan diaspor təşkilatlarından biri, çox hörmətli ziyalı Ağadadaş Kərimovun rolunu xüsusi qeyd edir. O, RF Dövlət Dumasında çalışan bir hüquqşünas kimi təkcə RLDP ilə deyil, “Vahid Rusiya”, “Ədalətli Rusiya” və digər siyasi qüvvələrlə xalqımızın mənafeyinə xidmət edən əlaqələr yaratmışdır. A. Kərimov Azərbaycan Tarix İnstitutunun nümayəndələri ilə görüşərkən söyləmişdi ki, fraksiya rəhbərləri məsələ qaldırmışdılar ki, Azərbaycan Tarix İnstitutunun alimlərinin Dövlət Dumasında çıxışını dinləmək istəyirlər. İnstitutun direktoru Yaqub Mahmudov bu məsələni Prezident Administrasiyası və AMEA-nın prezidenti Akif Əlizadə ilə razılaşdırdıqdan sonra 2014-cü ilin oktyabr ayının 9-da dörd nəfər əməkdaş, o cümlədən Cəbi Bəhramov Moskvaya getmiş, Dumada görüşlər keçirmişdilər. Orada on məsələ müzakirə olunmuşdu, bunun altısı Azərbaycan tərəfindən müzakirələrə təqdim edilmişdi. Moskvada ilk növbədə XIX əsrin I yarısında torpaqlarımızın çar Rusiyası tərəfindən işğalı, ermənilərin oralara köçürülməsi, Azərbaycan xalqına qarşı soyqırımı cinayətlərinin törədilməsi, ölkəmizin əleyhinə Qarabağ təxribatının və s. məsələlərin hamısının müzakirəsi təşkil edilmişdi. Bu müzakirələrdə bir nəfər də olsun deputat, Liberal-Demokrat Partiyası fraksiyasının üzvü tarixçilərimizin fikirlərini təkzib edə biləcək söz söyləyə bilməmişdi, iştirakçılardan heç kim “yox, belə olmamışdır” deyə bilmədi. Çünki Azərbaycan tarixçiləri təkzibolunmaz faktlar ortaya çıxarmışdılar.

Məlumdur ki, bu mövzularda nəşr olunan hər bir mətbu söz, radio-TV-dən yayılan müvafiq fikirlər respublikamızda akkreditə olunmuş səfirliklər vasitəsilə izlənilir, həmin əsərlər alınır, oxunur, Azərbaycanda səslənən fikirlərin icmalı hazırlanıb öz ölkələrinin rəhbərliklərinə çatdırılır. Ona görə də bu mövzuda əldə olunan sənədlərin işlənilib, arxiv sənədi formatına salınması və dövriyyəyə qatılması vacib işdir. Həmçinin, bütün bu işlər imkan verəcək ki, məsələn, 2003-cü ildə əgər yeddicildlik “Azərbaycan tarixi” kitabı nəşr etmişiksə, son illərdə elmi dövriyyəyə cəlb edilən yeni materiallar əsasında artıq 15 - 20 cildlik “Azərbaycan tarixi” əsərini çap edək.

Başqa bir fundamental əsər - “Naxçıvan tarixi” yüksək səviyyədə hazırlanıb və çapa məsləhət görülmüşdür. Bu, akademik nəşrdir. Hər dövr öz mütəxəssis-müəllifi tərəfindən yazılıb, burada Böyük Azərbaycanın ayrılmaz parçası olan qədim Naxçıvanın tarixi çox yüksək səviyyədə tədqiq olunub. Həmin kitaba çoxsaylı tarixi sənədlər və faktlar daxil edilmişdir.

Maraqlıdır ki, İnstitut ermənilərin özləri ilə bağlı, onların tarixilərinin tədqiqi istiqamətində də tədqiqatlar aparır. Cəbi Bəhramov bununla bağlı belə bir mühüm faktı da qeyd etdi. Bu da ondan ibarətdir ki, 2002-ci, 2011-ci və 2015-ci illərdə İnstitutda struktur dəyişiklikləri aparılmışdır, yəni problemlərin tədqiqinə uyğun olaraq, ehtiyaclar yarandıqca, yeni tədqiqat istiqamətləri zərurətə çevrildikcə, yeni şöbələr təşkil olunur, bu, məntiqli mövqedir. Bir müddət öncə ermənilərin qədim tarixinə aid AMEA-nın müxbir üzvü Y.Mahmudovun müəllifi olduğu “Real tarix və böyük Ermənistan uydurması” kitabı nəşr edilmişdir. Həmin kitabda tarixi mənbələr əsasında ermənilərin kimliyi məsələsi, onların Cənubi Qafqaza aid olmamaları məsələsi, buranın yerli, yəni avtoxton əhalisi olmamaları qədim mənbələr əsasında sübuta yetirilmişdir. Bu əsər üç dildə nəşr olunmuşdur. Yəni təkcə yuxarıda sadalanan məsələr deyil, o cümlədən bizim millətimizi düşündürən bir çox digər məsələlərə də İnstitutda önəm verilir, aydınlıq gətirilir.

Daha bir faktı da C. Bəhramov xüsusi qeyd etdi. 2014-cü ildə “Milli Atlas” nəşr olunmuşdu; onun “Tarix” bölməsinin tərtibatı Tarix İnstututuna aiddir. Oradakı ümumi Azərbaycan tarixi Atlasına dair xəritələrdən əlavə, İnstitut 14 yeni xəritə də əlavə etmişdir. Həmin elmə yeni məlum olan xəritələrin müəllifi Azərbaycan alimləri deyil, tarixin müxtəlif dövrlərində ayrı-ayrı ölkələrin nümayəndələri tərəfindən tərtib olunmuş xəritələrdir. Onlar İnstitutun alimi, tarix üzrə fəlsəfə doktoru E.Ə.Məhərrəmov tərəfindən aşkar edilərək çapa təqdim olunmuşdur. Burada da tarixi həqiqət öz əksini tapmışdır. Tarix İnstitutunda görülən bu işlərin heç birini nə erməni tərəfi, nə də onların havadarları elmi şəkildə təkzib edə bilmirlər. Ancaq yenidən saxtakarlığa və riyakarlığa başlamışlar. Bu sahədə onların Rusiyadan olan havadarları, məsələn, Stanislav Tarasov, Şnilerman, Areşov, Zatulin, Kazimirov... tarixi sənədlərə istinad etmədən, “ağızlarına gələni” yazırlar.

Hazırda Azərbaycan alimlərini ittiham edirlər ki, onlar ermənilərin bu gün yaşadıqları torpaqlardan çıxıb getməsini tələb edirlər. Bu məsələ ilə bağlı tanınmış tarixçi Cəbi Bəhramovun da fikrini öyrəndik:

-Bəli, mən bir vətəndaş kimi, həmin torpaqların ermənilərə məxsus olmadıqları üçün, bunu elm də sübut edir və onlar Azərbaycan xalqına qarşı vəhşətlər, cinayətlər törətdikləri üçün onların bu torpaqlarda yaşamaq haqqı tükənib, onlar o torpaqlardan getməlidirlər, oranı tərk etməlidirlər, hara getməlidirlər - vətənləri haradır? Ora. Bir gürcü alimi, Azərbaycanın məşhur dostu prof. Quram Marxuliya belə bir əsər yazıb: “Ermənilər Ermənistan axtarışında”. Gedib axtarıb tapsınlar və orada da yaşasınlar. Bu yaxınlarda Rusiyanın RenTV kanalında onların saxtakarlığı peşəkarcasına və elmi yöndən ifşa edilmişdi. Erməni iddialarına görə, Misir ehramları, qədim Atlantida, qədim yunan mədəniyyəti, qədim anqlo-sakslar, keltlər...bunların hamısı guya erməni mədəniyyətinin bir parçasıdır, guya ermənilərin 500 min il qədim tarixləri var. Elmdən xəbəri olan adam bilir ki, əgər bunlar bütün keçmiş vəhşi varlığı özlərinin əcdadları hesab edirlərsə, belə bir qövmdən nə gözləmək olar. Buna görə də ingilislər buna çox kəskin cavab veriblər... 108 il bundan əvvəl rus çarı II Nikolay Eçmiədzin kilsəsinin sinoduna bir prokuror göndərir, A. Frenkler soyadlı, bu şəxs tapşırıq alıbmış ki, çara erməni qriqoryan kilsəsi və ermənilərin özləri barədə ətraflı arayış hazırlasın. Həmin arxiv sənədini o vaxtlar rəhmətlik akademikimiz Ziya Bünyadov aşkar edib, Akademiyanın “Xəbərlər” jurnalının1989-cu il 2-ci nömrəsində çap etdirmişdi. Milliyyətcə yəhudi olan müəllif yazırdı ki, xəyanət, ikiüzlülük, yaltaqlıq, mənsəbpərəstlik, satqınlıq bu tayfanın ən başlıca milli xüsusiyyətləridir, onları millət, xalq kimi tanımır, o bunu xüsusi qeyd edir.

Yeri gəlmişkən, bu fikir bir çox rus müəlliflərində var. C.Bəhramov Ziya müəllimin ruhu şad olsun deyə həmin sənədi Azərbaycan və ingilis dillərinə tərcümə etdirib şərh yazaraq çap etdirmişdir. Bu səbəbdən də ideoloji müharibədə, erməni işğalına qarşı müharibədə Azərbaycan tarixçiləri öz vətəndaşlıq borclarını yerinə yetirmək üçün dövlət qarşısında, ölkə başçısının qarşısında, onun çağırışları qarşısında cavab olaraq həmin məsələlərin elmi cəhətdən, tarixi həqiqətlər baxımından işlənib hazırlanması istiqamətində əllərindən gələni əsirgəmirlər. Onlar özlərini ideoloji müharibədə Prezidentimizin əsgəri hesab edir, onun çağırışlarına həmişə hazır olduqlarını bəyan edir və bu səbəbdən də bundan sonra da bütün bu işləri davam etdirəcəklərini bildirirlər.

Söhbətimizin əvvəlində qeyd etmişdik ki, indiki Ermənistan Respublikasının formalaşdırılması, İrəvan xanlığının paytaxtının isə həmin qondarma respublikaya mərkəz şəhər kimi verilməsi məcburi olmuşdur. Qeyd edək ki, bu avantüra Avropa diplomatiya tarixində həmin regionda **“xristian zolağı”** yaratmaq termini ilə keçir. Bu faktın özü, yəni böyük bir arealı və xeyli dövlətləri birləşdirən bir Avropa da dolayısı ilə etiraf edir ki, həmin zolaq xatirinə bu “dövlət” süni şəkildə “doğuzdurulub”. Onun vəlidleynləri tarix və onun obyektiv şərtləri deyil, bu dövlət, Avropadan və Sovet Rusiyasından bic törəmədir.

Tarixçi alimlər bu sənədlər üzərində işləyərkən belə bir məqama da xüsusi diqqət yetirmişlər: bəs, AXC rəhbərliyində həmin vaxtlar bu məsələlərə baxış necə olmuşdur?

Azərbaycanın digər bir tanınmış tarixçisi, tarix elmləri doktoru Ataxan Paşayev xeyli arxiv sənədini sistemləşdirib nəşr etdirmişdir. Həmin sənədlərdən belə məlum olur ki, o vaxtlar Azərbaycan Milli Şurasına dövrün böyük dövlətləri tərəfindən güclü təzyiqlər olmuşdur. Cəbi Bəhramov bildirdi ki, hətta Osmanlı Türkiyəsi də Batum danışıqlarında Azərbaycana münasibətdə sərt mövqe tutmuşdu. Əlbəttə, Cümhuriyyəti yaradanların özlərinin də səhvləri olmuşdur. İrəvan quberniyasından olan üç deputat İrəvan şəhərinin ermənilərə güzəşt edilməsinə etiraz etsələr də və bu məsələni iki dəfə müzakirəyə çıxarsalar da, “Məsələ Milli Şurada müzakirə edilməlidir” təklifini irəli sürsələr də etirazları qəbul olunmamışdı.

Burada bir mühüm məqama diqqət yetirək. Seymdə 44 nəfər azərbaycanlı - müsəlman deputat var idi. Bu qərar verilərkən Milli Şuranın iclasında 28 nəfər iştirak etmişdi. 28 nəfərin ancaq 16-ı bu qərara “Hə” demişdi. Halbuki torpaq məsələsi müzakirələrində siyasi mənsubiyyətindən asılı olmayaraq bütün tərəflərin iştirakı tələb olunur. Cəbi Bəhramov vurğulayır:

- Ən başlıca məsələ ondan ibarətdir ki, Milli Şura, onun yaratdığı hökumət belə bir taleyüklü məqamda Azərbaycan xalqına müraciət etməmişdi, referendum keçirməmişdi, ona görə də Milli Şuranın belə qərar qəbul etməsi hüquqi baxımdan qeyri-legitimdir. Çünki burada hətta xalqın seçilən nümayəndələrinin 44 nəfərindən cəmi-cümlətani 28-i iştirak edib, onlardan da ancaq 16-ı səs verib. Ona görə də burada hüquqi prinsip pozulub. Digər məsələ isə odur ki, böyük dövlətlərin əksəriyyəti Azərbaycanı deyil, bunu xüsusi qeyd edirəm, Ermənistanın, Gürcüstanın müstəqilliyini tanıyıb, səfirlik missiyası göndərdikləri halda, onların sərhədlərini tanıdıqları halda, Azərbaycanla münasibətlərində bu diplomatik addımları atmaqda tələsmirdilər. Səbəbi məlumdur, keçən əsrin 19 - 20-ci illərində hərbi-diplomatik qarşıdurmaların başında Bakı nefti dururdu. Kim buna nail olacaqdısa, o da bunu öz mənafeyindən həll etməyə çalışırdı. Hətta o vaxtlar Almaniya ilə Osmanlı Türkiyəsi müttəfiq olmalarına baxmayaraq, bu məsələdə onlar arasında da çox böyük fikir ayrılığı var idi, hətta 1918-ci ilin sentyabr ayında Gürcüstan ərazisində onların arasında böyük bir toqquşma da olmuşdu. Yəni Bakı neftinə birinci qovuşmaq uğrunda qanlı mübarizə gedirdi. Digər bir məsələ: mayın 25-də Nuru Paşa Azərbaycana gəlmişdi. Hansı qüvvə onu buraya dəvət etmişdi? Hansı siyasi qurum onu buraya çağırmışdı? Hökumət onda yaradılmışdımı? Bir çox suallar var, bunlara aydınlıq gətirmək üçün arxiv sənədləri ilə dərindən işləmək lazımdır.

(davamı 9-cu səhifədə)